

Kəmaləddin Qədim



## NƏ OLA, BİR AZ DA İŞIQLAŞASAN...

Çıxasan bəlkə bu zülmət içindən,
Nədir bu irəli, geri, görəsən...
Bir azca işığın düşə önünə,
Düşə ki, getdiyin yeri görəsən...

Görəsən bir az da qəlbin üzülə,
Necə oynayırsan, necə, köz ilə...
Baxasan ətrafa ayıq göz ilə,
Nə varsa bir az da iri görəsən...

Dördsə iki dəfə iki, boş verib,
Çəkirsə kim hansı yükü, boş verib.
Özgənin gözündə tükü boş verib,
Bəlkə öz gözündə tiri görəsən...

Gör nəyin gizlidi, gör nəyin aşkar,
Burnunun ucunu görməyin aşkar.
Kimlərdən yanasa ölməyin aşkar,
Ölürsə dərdindən biri, görəsən...

Olasan bir az da elə görücü,
Görəsən necədi işığın gücü...
Şeytandı, şuğuldu beşindən üçü,
Minilin başı bir huri görəsən...

Elə, yaşayasan haqqa, yaşasan,
Haqq üçün dərələr, dağlar aşasan.
Nə ola, bir az da işıqlaşasan,
Arayıb, gəzdiyin Biri görəsən...

*23 noyabr 2014*

## TANRI YAXASINDAN ƏLİ ÇIXANIN...

Yerinə bir qara daş ola keşkə,
Dünyaya sağ gəlib, ölü çıxanın.
Nədi aqibəti, nədi ki, eşqə
Ağıllı girənin, dəli çıxanın?..

Göylərdən gələnə butam deyilir,
Başqadı bu ləzzət, bu tam, deyilir.
Adına bir ömür adam deyilir,
Sonunda qansoran zəli çıxanın...

Yaşayır dövləti, sərvəti sanı,
Götürür hər yanı şöhrəti, şanı.
Özündən güclünün uğrunda canı,
Gücsüzün üstündə dili çıxanın...

Bir az da uzatsam bəhsi çıxacaq,
Kim kimin nəsinin nəsi çıxacaq...
Canım, ha gözlə ki səsi çıxacaq,
Elə ayaqüstə ili çıxanın...

Gedən gedir, yolu, üsulu qalır,
Boynunda günahı, qüsulu qalır.
Adam yaxasından asılı qalır,
Tanrı yaxasından əli çıxanın...

*21 noyabr 2014*

## DEMƏK Kİ, YAZIYA POZU YOXUYMUŞ...

Nələri itirdim, nələr çıxandan,
Elə bil heç izi-tozu yoxuymuş...
Yoxuymuş, mən sürən ömür adında,
Dünyanın bir çürük qozu yoxuymuş...

Gəldi bu gələn də haramın üstdə,
Yığdı batmanları qramın üstdə.
Heç bunun hərdən bir yaramın üstdə,
Səpməyə bir çimdik duzu yoxuymuş...

Oyunmuş nə varsa, oyun, əzəldən,
Qurtara bilmirik boyun əcəldən.
Qoyunmuş sanki bu qoyun əzəldən,
O tifil, südəmər quzu yoxuymuş...

Elə haqq dediyin üzüldü bitdi,
Ya ləldi, gövhərdi, qızıldı, bitdi...
Bu da bir şeirdi, yazıldı, bitdi,
Demək ki, yazıya pozu yoxuymuş...

*12 oktyabr 2014*

## DAVA

Bizimki davalıq deyil,
Getsə də hər yanda dava...
Bu dən ki urvalıq deyil,
Nədir dəyirmanda dava?..

Çoxu kimin, azı kimin,
Toyu kimin, yası kimin?
Haqlıdı davası kimin,
Davadı ad-sanda, dava...

Nə baş, nə can davasıydı,
Nə də yorğan davasıydı.
Dava bəy, xan davasıydı,
Başqaydı bəy, xanda dava...

Yaşayıb bu üzlə hələ,
Baş qatırıq sözlə hələ.
Gözlə Şuşam, gözlə hələ,
Görünmür fərmanda dava...

Gələn gedəndən betərdi,
Qaladı dərd üstdən dərdi.
Kəsəmmədik şumda şərti,
Çıxacaq xırmanda dava...

*10 sentyabr 2014*

## QURTARIRAM DAHA SƏNNƏN...

Bu nə hesab, bu nə kitab,
Çox bahaydım, baha, sənnən...
Dünya cənnət kimiydi lap,
Batsam da günaha sənnən...

Sağın idim, solun idim,
Keçiləsi yolun idim.
Kölən idim, qulun idim,
Olmadı ki ağa sənnən...

Elə çəkdikcə yandılar,
Dərdini də qısqandılar.
Çıxardı dağa, sandılar
Çıxmışam yaylağa sənnən...

Toplanıram qəm-qəm daha,
Gülüm, oluram cəm daha.
Mən sənsiz ölürəm daha,
Qurtarıram daha sənnən...

*13 sentyabr 2014*

## YADIMA GƏLİR...

Bir vaxt sevmişdim səni,
Fələk, yadıma gəlir...
Mələkdin gözlərimdə,
Mələk, yadıma gəlir...

Bu imiş Lələliyin,
Qanımmış belədiyin.
Ələndim, ələdiyin
Ələk yadıma gəlir...

Qoçaq, sənin, mənimdi,
O çağ sənin, mənimdi.
Bıçaq sənin, mənimdi
Kürək, yadıma gəlir...

Bir qızla qandırdığın,
Üstdə dolandırdığın.
Uğruna yandırdığım
Ürək yadıma gəlir...

Necə saldın atımdan,
Keçdin yeddi qatımdan.
Kəfən çıxmır yadımdan,
Bələk yadıma gəlir...

*10 sentyabr 2014*

## GETMƏDİ

Sadiq dostum oldu necə,
Aha bax, aha, getmədi...
Fırlandı yan-yörəmdəcə,
Çəkilib dağa getmədi...

Heç bilməzdim çəmi belə,
Əzabmış kef-dəmi belə.
Getmədi dərd-qəmi belə,
Məndən uzağa getmədi...

Ayrılıq haqq kimi gəldi,
Lap elə vaxt kimi gəldi.
Gəldi, qonaq kimi gəldi,
Yurd saldı daha, getmədi...

Neynim, kaş ki yan ötəydi,
Keçib yanımdan ötəydi...
Bu eşq canımdan ötəydi,
Canımdan baha getmədi...

*8 sentyabr 2014*

## ÇƏKMƏYƏ DƏRD OLACAQ...

Yaşamaq budu, canım,
Min cürə şərt olacaq...
Hər gün yol gözləməkdən,
Gözlərin dörd olacaq.

Boğul suçda, günahda,
Ya "Allaha pənah"da.
Bu gün də var, sabah da
Beş-altı mərd olacaq...

Çıxammırsan, nə dikdi,
Ruhun canda bezikdi.
Bu yaz da çox gecikdi,
Bu qış da sərt olacaq...

Baxma aza, kasada,
Öl öldüyün masada.
Qorxma, nə olmasa da,
Çəkməyə dərd olacaq...

*13 avqust 2014*

## KİM KİMİ TEZ TAPSA, XƏBƏR ELƏSİN...

Düz olduq, qaldıq da düzün düzündə,
Asmışdıq yaxadan düzümüzü biz.
Nə sən özündəsən, nə mən özümdə,
Harada itirdik özümüzü biz?..

Olanlar, keçənlər sanki dünəndi,
Sən indi hardasan, mən harda görən?
Mən axı yollarda çox görünəndim,
Görən olubdumu yollarda görən?..

Kimin gəlinidi bu göyçək, kimin,
Sorubmu qocalar, qarılar səni?
Dəyib gözlərinə gül-çiçək kimi,
Dönübmü başına arılar sənin?..

Sən mənə heç zaman uzaq olmadın,
Yaxına baxıram... Yaxında yoxsan...
Hər gecə yuxuna gəlirdim, qadın,
Bəs onda hardayam, yuxunda yoxsam?..

Kimlərdən soruşaq, alaq sorağı,
O yaşıl ağacın altı görübmü?
Biz elə göylərdə uçurduq axı,
Göylərin yeddinci qatı görübmü?..

Etməsin nə duman, nə çən yolundan,
Qoy hərə bir yana səfər eləsin.
Nə sən yolundan qal, nə mən yolumdan,
Kim kimi tez tapsa, xəbər eləsin...

*28 iyul 2014*